# Hər görüş xalqa xidmət amalından qaynaqlanır

***Son illərdə həyatımızın bütün sahələrində gedən sürətli inkişaf göz önündədir. Bu inkişafın təmin edilməsi, əhalinin məşğulluğunun artırılması, maddi rifahının yüksəldilməsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlər əhalinin böyük razılığına səbəb olur.***

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin keçirdiyi səyyar görüş-qəbullar zamanı sakinlər tərəfindən səsləndirilən fikirlərdə cəmiyyətimizin sosial-iqtisadi və mədəni inkişafının bu günkü səviyyəsi yüksək qiymətləndirilir.***

## Cığatelli kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Cığatelli kəndində səyyar görüş-qəbulu keçirilib.

Görüşdə rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, müvafiq idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Tədbiri açan RİH-nin başçısı Prezident İlham Əliyev tərəfindən aparılan sosialyönümlü islahatlar, ölkəmizdə əldə edilən iqtisadi uğurlar nəticəsində əhalinin sosial müdafiəsinin və həyat səviyyəsinin gündən-günə yaxşılaşdığını diqqətə çatdırıb.

Vətəndaşların maddi, mənəvi tələbatlarının öyrənilməsi və həlli istiqamətində aparılan işlərin bu gün dövlətin prioritetlərindən olduğunu vurğulayan RİH-nin başçısı ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amilinin dayandığını bildirib.

Əhalinin sosial rifahının yaxşılaşdırılmasına dair dövlətimizin başçısı tərəfindən imzalanan fərman və sərəncamların hamısının vətəndaş məmnunluğunun artırılmasına yönəldildiyini deyən natiq əməkhaqlarının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlərin həyata keçirilməsi istiqamətində aparılan islahatların sosialyönümlülük və humanizm prinsiplərinə əsaslandığını bildirib.

RİH-nin başçısı qəbul olunan dövlət proqramlarının icrası nəticəsində bütün regionlarda, o cümlədən Qəbələ rayonunda həyata keçirilən abadlıq-quruculuq işləri barədə görüş iştirakçılarına ətraflı məlumat verib.



Sonra kənd sakinləri dinlənilib.

Onlar rayonumuzda son illər aparılan tikinti-quruculuq və abadlıq işlərinə, yaradılan yeni iş yerlərinə görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

Sakinlərdən Sabir Şərifov, Firudin Nəbiyev, Lalə Baxışova, Sədiyar Abulov, Sədi Nəbiyev, Fərhad Mustafayev, Mirbala Məmmədov və başqaları Həmzəli-Cığatelli yolunun asfaltlaşdırılmasını, kəndə qaz xəttinin çəkilməsini, yeni yaşayış massivində artezian quyusunun qazılmasını, yaşayış məntəqəsinin sel sularından mühafizəsini gücləndirmək məqsədilə Həmzəli çayının sahilində beton bəndin inşa edilməsini və ərazidə işıq xətlərinin dəyişdirilməsini xahiş ediblər.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərin və verilən təkliflərin icrası ilə əlaqədar aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verib.

## Xırxatala kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu



Xırxatala kəndində keçirilib.

Rayon icra hakimiyyətinin məsul işçilərinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat və xidmət sahələri rəhbərlərinin və kənd sakinlərinin iştirak etdiyi görüş-qəbulu giriş sözü ilə açan RİH-nin başçısı ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda həyata keçirilən sosial infrastruktur layihələrindən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.

RİH-nin başçısı görülən işlərlə yanaşı, digər yaşayış məntəqələri kimi rayonun Xırxatala kəndində də yaxın vaxtlarda yeni sosial layihələrin həyata keçirilməsinə başlanılacağını vurğulayıb.

Görüş-qəbulda üç kəndi birləşdirən Həmzəli-Cığatelli-Xırxatala yolunun yenidən qurulacağı, ərazidəki çayın üzərində müasir körpü inşa ediləcəyi bildirilib.

Yaşayış məntəqəsinə qaz xəttinin çəkilməsi ilə bağlı bütün zəruri addımlar atıldığını diqqətə çatdıran RİH-nin başçısı rayonun hər bir kəndində, eləcə də Xırxatala kəndində əhalini narahat edən məsələlərin aradan qaldırılması ilə bağlı həyata keçirilən tədbirlərin, infrastruktur layihələrinin bundan sonra da davamlı olacağını qeyd edib.

Sonra kənd sakinləri dinlənilib. Onlar çıxışlarında ölkədə və rayonda aparılan abadlıq-quruculuq işlərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Çıxış edənlərdən Məhəmmədiyə Məmmədov, Rahilə Rəşidova, Fəqani Hacıyev, Əsabəli Məmmədov, Əvəz Eyvazov, Mürşüd Səmədov, Sədayə Aslanova, Elton Xəmmədov və başqaları Xırxatala



kəndinə qaz xəttinin çəkilməsinə, ərazinin sel sularından mühafizəsi ilə bağlı Bum çayında beton bəndin tikilməsinə, yeni salınan yaşayış massivində artezian quyusunun qazılmasına və kənd tam orta məktəbinin əsaslı təmir olunmasına köməklik göstərilməsini xahiş ediblər.

Sakinləri narahat edən məsələlərlə bağlı verilən sualları ətraflı cavablandıran RİH başçısı qaldırılan məsələlərin həlli istiqamətində müvafiq qurumlara tapşırıqlar verib.

## İmamlı kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin daha bir səyyar görüş-qəbulu İmamlı kəndində keçirilib.

Görüş-qəbulda rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak edib.

Tədbiri giriş sözü ilə açan RİH-nin başçısı rayonumuzun bütün yaşayış məntəqələrində, eləcə də İmamlı kəndində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Səbuhi Abdullayev aqrar sahəyə göstərilən dövlət qayğısı nəticəsində kənd təsərrüfatının əhalinin rifahının yüksəlməsində mühüm rol oynadığını, daha təminatlı etdiyini, bu baxımdan İmamlıda da müəyyən işlərin görüldüyünü qeyd edib.



Sonra kənd sakinləri dinlənilib. Görüş iştirakçıları həyata keçirilən sosial layihələrin uğurlu nəticələrinə görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildiriblər.

Sakinlərdən Zabit İbrahimov, Səhrab Hacıyev, Cavanşir Məhərrəmov, Sara Məmmədhüseynova, Səfa Hacıyev, Samit İbrahimov və başqaları çıxışlarında Mirzəbəyli-İmamlı yolunun asfaltlaşdırılmasını, yeni artezian quyusunun qazılmasını, əraziyə qaz xəttinin çəkilməsini, kənddə əlavə transformatorun quraşdırılmasını, yaşayış məntəqəsinə gələn işıq xətlərinin təmir edilməsini və çayın sahilində beton mühafizə bəndinin tikilməsini xahiş ediblər.

Rayon icra hakimiyyətinin başçısı verilən təkliflərdən icrası yerli təşkilatların səlahiyyətində olan məsələlərin həlli barədə həmin təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verib.



O, qaz xətti və asfalt yol çəkilişinin dövlət proqramına uyğun olaraq aparıldığını qeyd edib. Ölkə başçısının tapşırığına əsasən yaxın illərə qədər rayonda qazlaşdırılmayan yaşayış məntəqəsinin qalmayacağını və yolların asfaltlaşdırılması işlərinin mərhələlərlə başa çatdırılacağını görüş iştirakçılarının diqqətinə çatdırıb.

"Qəbələ"

İlkin Vəlizadə (Foto).